Azərbaycan Milli
Elmlər Akademiyası

**İNFORMASİYA TEXNOLOGİYALARI İNSTİTUTU**

09/06/2017 № M 07/17

"SINAM" Məhdud Məsuliyyətli
Cəmiyyətin direktoru
cənab Əbülfət Rəhmanova

AMEA Informasiya Texnologiyaları İnstitutunda "FARABI" (BTMMN)
layihəsi çərçivəsində tətbiq olunan "SERP" proqram təminatına dair

RƏY MƏKTUBU

Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin layihəsi çərçivəsində yaradılan "Büdcədən maliyyələşən təşkilatlar üçün Maliyyə və Mühasibatlıq Hesabatları" avtomatlaşdırılmış informasiya - FARABI layihəsi çərçivəsində tətbiq olunan "SERP" proqram təminatı sistemi AMEA İnformasiya Texnologiyaları İnstitutunda tətbiq edilmişdir.

AMEA İnformasiya Texnologiyaları İnstitutu da elektron maliyyə sənədləşməsinin üstünlüklərindən yararlanmağa başlamışdır. "SERP" proqram təminatı tam milli mühasibat uçotu standartlarına uyğundur və bu standartları nəzərə almaqla yaradılmışdır. Bununla yanaşı sistemin yaradıcısı olan SINAM şirkəti mütəmadi olaraq milli mühasibat uçotunda hər hansı dəyişiklikləri son dərəcə operativ olaraq sistemə daxil edir və proqram mütəxəssislərindən ibarət tətbiq qrupu isə bu dəyişikliklər haqqında "SERP" proqram təminatı sistemi ilə işləyən əməkdaşları təlimatlandırır.

Sistemin tətbiqi nəticəsində İnformasiya Texnologiyaları İnstitutunda mühasibat uçotu ilə bağlı bütün sənədlər o cümlədən ştat cədvəli, şəxsi kartlar elektron formata keçirilmiş, əmək haqqlarının və digər ödəmələrin hesablanması avtomatlaşdırılmışdır. Sistem əvvəllər mövcud olan "kagız" sənədləşməsini "elektron" formata keçirmişdir.

Bununla yanaşı hər əməliyyatın bazada yığılması, heç bir məlumatın itməməsi, istənilən vaxt istənilən hesabatların alınmasının mümkünlüyü, o cümlədən, kadr hesabatları, maliyyə hesabatları (Xərcər Smetasının İcrası haqqında; Maliyyə vəziyyəti haqqında; Maliyyə fəaliyyətinin nəticəsi haqqında; Mənfəət və Zərər; Pul vəsaitinin hərəkəti haqqında; Kapitalda dəyişiklik haqında hesabat), DSMF hesabatları , statistik hesabatların alınması işlərimizi asanlaşdırmışdır.

Baş mühasib : L.H. Quliyeva